# NDU-da beynəlxalq elmi simpozium keçirilib

Naxçıvan Dövlət Universitetində "Orta Araz hövzəsi tarix və mədəniyyət kontekstində" adlı beynəlxalq elmi simpozium keçirilib. Simpozium Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu, Naxçıvan Dövlət Universiteti, Türkiyə Respublikasının Nazirlər Kabinetinin Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumu, Atatürk Araşdırma Mərkəzi və İğdır Universitetinin birgə təşkilatçılığı ilə reallaşıb. Tədbir iştirakçıları əvvəlcə tələbələrin rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar. Beynəlxalq elmi simpozium öz işinə başlamazdan əvvəl türk xalqlarının unudulmaz liderləri - Heydər Əliyev və Mustafa Kamal Atatürkün, türk şəhidlərinin ruhu ehtiramla anılıb, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin dövlət himnləri səsləndirilib.

Plenar iclasda ilk olaraq Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Kahramanın simpozium iştirakçılarına ünvanladığı təbrik məktubu oxunub.



Atatürk Araşdırma Mərkəzinin rəhbəri, professor Mehmet Ali Beyhan çıxış edərək belə bir beynəlxalq tədbirin sivilizasiyanın beşiyi, ümumtürk tarixində və mədəniyyətində özünəməxsus yeri olan Naxçıvanda keçirilməsinin təsadüf olmadığını vurğulayıb. Mehmet Ali Beyhan türkdilli xalqların qədim və zəngin tarixindən, orta Araz hövzəsindəki ilk yaşayış məskənlərindən, bu əraziyə məxsus qədim mədəni irsin tədqiqinin əhəmiyyətindən danışıb.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Naxçıvanın 5000 ildən çox tarixə malik şəhərsalma mədəniyyəti, ən qədim incəsənət, mənəvi və maddi mədəniyyət nümunəsi, dünya əhəmiyyətli Gəmiqaya abidəsi, "Əshabi-kəhf" ziyarətgahı, Qazma mağarası, I və II Kültəpə, Xaraba Gilan, Ovçular təpəsi, Oğlanqala və digər tarix və mədəniyyət abidələri haqqında məlumat verib.

Türkiyə Respublikası Nazirlər Kabinetinin Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun sədri Derya Örs çıxışında Şərqi Anadoludan tutmuş Qafqaz və Orta Araz hövzəsi ərazilərini əhatə edən türk tarixi və mədəniyyətinin qarşılıqlı öyrənilməsi baxımından beynəlxalq elmi simpoziumun dəyərini vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, millət vəkili Yaqub Mahmudov Azərbaycan ilə Türkiyə dövlətlərinin rəsmiləri arasında ortaq türk tarixinin yazılması ilə bağlı razılığa əsasən fundamental elmi tədqiqatların aparılması, yeni elmi nəşrlərin hazırlanması barədə simpozium iştirakçılarına məlumat verib.

Türkiyənin Naxçıvandakı Baş konsulu Nihat Erşen Azərbaycan və Türkiyənin vahid tarixi-mədəni köklərindən, bugünkü siyasi həmrəyliyindən, bu cür müştərək simpozium və konfransların, birgə elmi-nəzəri fəaliyyətin əhəmiyyətindən danışıb, simpoziumun işinə uğurlar arzu edib.

Plenar iclas NDU-nun incəsənət fakültəsinin təqdim etdiyi "Azərbaycan - Türkiyə" mahnısı ilə yekunlaşıb.

Beynəlxalq elmi simpozium iki gün ərzində müxtəlif səpgili bölmə iclasları ilə öz işini davam etdirib.

**Mehriban SULTAN**